***“Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 3-də Tərtər rayonunun Suqovuşan qəsəbəsində Azərbaycan bayrağını ucaldarkən etdiyi çıxışında bir il öncə Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsini ordumuzun böyük uğuru, böyük qələbəsi adlandırdı. Bu qəsəbənin işğaldan azad edilməsi zamanı şəhidlərimizin, qazilərimizin olduğunu bildirərək, “Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralananlara şəfa versin.” – dedi. Qeyd etdi ki, sentyabrin 27-də Anım Gününü keçirərkən Vətən uğrunda həlak olmuş qəhrəman şəhidlərimizin xatirəsini bir daha böyük hörmətlə yad etdik”. Bu fikirləri bizimlə söhbətində Milli Məclisin deputatı Aydın Hüseynov Prezidentin bölgəyə səfərinə münasibət bildirərkən dedi. O, əlavə olaraq bu fikirləri də səsləndirdi:***



# Dövlət başçısı Tərtərdə mühüm yeniliklərdən danışdı

– Cənab Prezidentin çıxışında dediyi kimi, Suqovuşan qəsəbəsinin azad edilməsi strateji nöqteyi-nəzərdən çox böyük əhəmiyyət kəsb edirdi. Çünki bu qəsəbənin yerləşməsi müharibənin gedişatında önəmli rol oynayırdı və qəsəbənin ordumuzun əlində olması bizim üçün gələcək əməliyyatlarda üstünlük təşkil edirdi. Düşmən də ordumuzun bu istiqamətdən hərəkətə keçəcəyini bilməmiş deyildi. Talış kəndi və Suqovuşan qəsəbəsində düşmən tərəfdən çox güclü istehkamlar qurulmasına, müdafiə xətti təşkil edilməsinə baxmayaraq, oktyabrın 3- də hər iki yaşayış məntəqəsi işğaldan azad edildi. Dövlət başçımız bütün strateji və qəsəbəyə gedən yüksəkliklərdə düşmən qüvvələrinin yerləşdiyini vurğulayaraq, Azərbaycan Ordusunun böyük qəhrəmanlıq və fədakarlıq göstərərək şiddətli döyüşlər nəticəsində Talışı və Suqovuşanı işğaldan azad etdiklərini böyük uğur adlandırdı. Bildirdi ki, Suqovuşan qəsəbəsinin və Talış kəndinin azad edilməsinin digər əhəmiyyətli tərəfi ondan ibarət idi ki, birinci azad edilmiş 6 kənddən sonra, yəni, sentyabrın 27- dən oktyabrın 3-nə qədər başqa yaşayış məntəqəsi azad edilməmişdi. Müharibənin yeddinci günündə səkkiz kəndin azad edilməsi, o cümlədən keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində yerləşmiş bu kəndlərin azad edilməsinin böyük mənəvi üstünlüyü var idi.

Aydın Hüseynov bu kəndlərin azad olunmasının döyüşən orduya daha da güc verdiyini, döyüş ruhunu yüksəltdiyini Prezidentin fəxrlə söyləməsinə diqqət çəkdi və dedi:

– Dövlət başçımız haqlı olaraq vurğuladı ki, bu kəndlərin azad edilməsinin strateji əhəmiyyəti çox böyük idi. Əvvəla, ona görə ki, burada düşmənin çox böyük canlı qüvvəsi yerləşmişdi. Bu kəndlərin azad olunması ilə bölgədəki strateji yollara da nəzarətimizin təmin olunması düşmənin canlı qüvvəsinin hərəkəti üçün, çox böyük problemlər yaratdı. Bu üzdən düşmən tərəf heç bir əməliyyat keçirə bilmədi. Azərbaycan Ordusunun taktiki addımları və manevr etmək imkanları düşmənin böyük bir hərbi birləşməsini iflic vəziyyətdə saxladı.

Suqovuşan qəsəbəsinin əhəmiyyətindən danışan Prezident burada mühüm su anbarı yerləşdiyini və onun çox böyük strateji obyekt olduğunu da dedi. Suqovuşan və Sərsəng su anbarlarının ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1976-cı ildə inşa edildiyini xatırlatdı. Bu su anbarları Tərtər, Bərdə, Ağdam, Goranboy və digər rayonlara su verirdi. İşğal dövründə isə ermənilər yay mövsümündə suyu kəsir, qışda verirdilər.

Prezident fəxrlə bildirdi ki, indi bu ərazilərə biz hakimik. Hər yer abad olacaq, hər kəs burada xoşbəxt yaşayacaq. Biz azad etdiyimiz əraziləri yenidən qururuq. Bu il Suqovuşan su anbarından istifadə edərək 30 il ərzində ilk dəfə olaraq Tərtər və digər rayonlara su verildi. Bu günə qədər suvarılmayan, yaxud da ki, az suvarılan 30 min hektar torpağa bu qəsəbənin azad edilməsi nəticəsində su verilmişdir və indi kanallarda təmir işləri gedir. Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarında mövcud olan su ehtiyatlarının səmərəli şəkildə istifadəsi ilə bağlı konkret addımlar atılır və çox ciddi proqram icra edilməkdədir. Artıq su mənbələrinin bütün xəritələri tərtib edilib və yeni su anbarlarının tikintisi gündəlikdə duran məsələdir.

Dövlət başçımızın işğaldan azad edilən bölgələrə ardıcıl səfərləri, orada gedən işlərlə yerindəcə tanış olması, hər şeyi diqqətdə və nəzarətdə saxlaması onu göstərir ki, Qarabağın bütünlüklə cənnətə dönəcəyinə az qalıb. Orada aparılan abadlıq-quruculuq, təmir-bərpa işləri azad edilmiş torpaqlarda çox tezliklə həyatın qaynayacağına, o yerin sakinlərinin doğma yurd-yuvalarına dönəcəklərinə təminat yaradır.

***Zərifə BƏŞİRQIZI, “Xalq qəzeti”***

Xalq qəzeti.- 2021.- 5 oktyabr.- S.8.